# SƏMAVİ HƏDİYYƏLƏR

## 2-ci kitab



بسم الله الرحمن الرحيم

**Bismillahir Rəhmanir Rəhim**

# Səmavi hədiyyələr

## İslam təlim-tərbiyəsi

## İkinci kitab



مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

**(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)**

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

**Bismillahir Rəhmanir Rəhim**

**Bağışlayan və mehriban Allahın adı ilə. O, insana Quranı öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

Rəbbimiz bizə İslam təlim-tərbiyəsi sahəsində uşaqlara, yeniyetmələrə və xidmət etmək şərəfini nəsib etdi.

MSEN (MUSLİM SCHOOLS EDUCATİON NETWORK) böyük alimlərin rəhbərliyi altında insanlara dini-əxlaqi dəyərləri təqdim edən bir qurumdur. Qurumun əsas fəaliyyəti gələcəyin qurucuları olan bu günkü nəslin əxlaqi və mənəvi baxımından yetişdirilməsində müəllim, valideyn və şagirdlərlə həmkarlıq etməkdən ibarətdir. Aşağıda bir sıra məqsədlərimizi təqdim edirik:

* İslam təlim-tərbiyəsinin tədrisi üçün aydın və gözəl bir hədəf bəyan etmək;
* Mənbələr, ixtisaslar və təcrübələrin mübadiləsi üçün geniş bir ədəbiyyat təqdim etmək;
* Əxlaqi və mənəvi bir dəyişikliyin formalaşmasında əhatəli bir ortamın yüksəldilməsi;
* İslam təlim-tərbiyəsinin kursu, məzmunu, metodları və dəyərləndirilməsi üçün çalışmaq.

Bu qurumun əsas məqsədi mənəvi dəyərlərin öyrənilməsində yüksək dizaynla hazırlanmış kamil bir məcmuəni təqdim etməkdir. Allahın mərhəməti və yüksək səviyyəli kadrların həmkarlığı ilə bu məqsədə doğru önəmli bir addım atılmışdır.

Bu qəbildən olan kitablar əsasən mötəbər İslami mənbələrə əsaslanmaqla yanaşı maraqlı və cəlbedici metodlardan istifadə edərək etiqad prinsipləri, əxlaq və dini hökmləri ehtiva edir. Bu məcmuə əsasən İslamın əsas meyarlarına – ağıl, mənəviyyat, mötədillik və sülhə əsaslanaraq tərtib edilmişdir.

Yeri gəlmişkən, bu böyük işdə bizimlə əməkdaşlıq etmiş bütün həmkarlara, xüsusilə də professor Ərafi, doktor Məhəmməd Məhəmmədian, doktor İbrahimi və cənab Fəyyaziyə təşəkkür etməyi özümüzə borc bilirik.

Habelə MSEN-dəki həmkarlarımızın akademik dəstəyinə, xüsusilə doktor Əzhər Həsənrza, Bilal Rizəvi, Nəzirə Musa, Səfinə Səadət, Nazənin Davdani, Şahin Heydər, Sima Cəmaləddin, Laden Razeqi və Şəhrbanu Cəfəriyə bu məcmuənin öz məqsədinə çatmasında misilsiz zəhmətlərinə görə təşəkkür edirik.

**İsa Cahangir**

**MSEN**



**Hörmətli həmkar, əziz müəllim!**

Sizi salamlayır və belə bir dərsliyin hazırlanıb ərsəyə gəldiyi üçün Allaha şükür edirik. Ümid edirik ki, "Səmavi hədiyyələr" kitabında verilmiş materiallar uşaq və yeniyetmələr üçün faydalı olacaq. Kitabda verilənlərin daha da faydalı olması üçün aşağıdakı qeydlər diqqətinizə çatdırmaq istəyirik:

1. Bu kitabı tədris etmək üçün, ilk növbədə, "Müəllim kitabı"nı oxumalısınız. Həmin kitabda verilmiş bəzi materialları mütaliə etmədən tədris prosesinin lazımi səviyyədə aparılması qeyri-mümkündür. Misal olaraq qeyd edə bilərik ki, bəzi şeirlər yalnız "Müəllim kitabı"nda verilmişdir.

2. Əlinizdə olan bu kitabla "Şagird kitabı" birləşdirilmişdir. Bunu nəzərə alaraq, kitabda verilənlərin hamısı sinifdə işlənilməlidir.

3. Kitabda verilmiş şəkillərin dərsin məzmunu ilə bilavasitə bağlı olduğunu nəzərə alaraq şəkillər üzərində də iş aparılmalıdır.

4. Bəzi dərslərin tədrisi müəllimin məsləhətinə əsasən əvvələ və ya sonraya keçirilə bilər.

Məsələn, hər hansı bir bayram münasibətilə dəsrlərin yerini dəyişmək olar.

5. "Səmavi hədiyyələr" dərsində şagirdlərin qiymətləndirilməsi üçün "Müəllim kitabı"na müraciət edin.



6. Hər dərsin qısa formada toxunulduğu hissələri vardır. Bu kimi məsələlər “Müəllim kitabı”nda ətraflı izah edilmişdir:

Dərsin adı: Dərsin adı bilavasitə, ya da dolayısı ilə dərsin əsas məzmununu əhatə edir. Şagirdlərin çalışqanlığını nəzərə alaraq, dərsin mövzusu barədə onların fikrini dəyərləndirmək mümkündür.

Dərsin mətni: Dərsdəki məfhum və məqsədin əsas hissəsini təşkil edir.

Öyrənək: Bu, bəzi məşğələlərdə dərsin əsas məzmununu mənimsəyib daha da təkmilləşdirmək məqsədilə verilmiş bir hissədir. Qeyd etməliyik ki, bu hissədə verilənlər dərsin tərkib hissəsi olub mövzuların öyrənilməsinə böyük kömək göstərir.

Aşağıda dərsin əsas məzmununu təşkil edən yuxarıdakı üç hissədən əlavə hər dərsə uyğun tapşırıq tipli müxtəlif iş növləri verilmişdir:

Düşünürəm: Bu hissə dərsdə verilənlərin xülasəsi olub şagird tərəfindən deyilməlidir. Şagirdlər bu bölmədə çox fəal iştirak etməlidirlər. Bu hissənin yazılı şəkildə yerinə yetirilməsi vacib deyil. Uşaqlar onu şifahi şəkildə də yerinə yetirə bilərlər.

İstəyirəm: Bu hissə şagirdlərin duyğularını gücləndirmək məqsədi güdüb onları praktiki olaraq yaxşı işlər görməyə sövq etmək üçün nəzərdə tutulmuşdur. Burada şagirdlər daha öncədən

düşünüb başa düşdüklərini həyata keçirməyə çalışırlar. Bu hissənin də yazılı şəkildə yerinə yetirilməsi vacib deyil, şifahi formada da icra oluna bilər.

Söhbət edək: Bu hissədə şagirdlər müəllimin köməyi və nəzarəti ilə verilmiş sualları cavablandırırlar. Müəllimin yekunlaşdırması ilə dərsin mövzusu bir qədər də möhkəmləndirilir.

Əmin və Minə: Bu hissədə iki bacı-qardaş dərsdə verilmiş fikri öz dillərində izah edirlər. Şagirdlər sinifdə verdikləri müxtəlif cavablarla onların fikrini daha da təkmilləşdirirlər. Bu hissə dərsdə verilən mövzunun bir qədər də izah edilməsinə xidmət edir.

Düşün və tap: Bu hissədə şagirdlərin diqqətini yoxlamaq məqsədilə onlara bir tapşırıq verilir.

Bax və de: Bu hissə dərsdə keçirilmiş mövzunu bir qədər də möhkəmləndirmək məqsədi daşıyır.

Birlikdə oxuyaq: Bu hissədə dərsin məzmununa uyğun şeir verilir. Şagirdlər şeiri birlikdə oxuyurlar. “Müəllim kitabı”nda bəzi əlavə şeirlər də verilmişdir.

Səhnələşdirin: Bu hissədə keçirilmiş bəzi dərslərin mövzusu sinifdə şagirdlər tərəfindən səhnələşdirilir. Tamaşanın daha

da maraqlı olması üçün müəllimlər əlavə vasitələr hazırlaya bilərlər. Bu bölümdə şagirdlər müxtəlif rolları ifa etməklə dərsin mövzusunu daha da möhkəmləndirirlər.

Gözəl bir iş: Bu hissə də dərsdə verilmiş əsas məqsədi möhkəmləndirmək xarakteri daşıyır.

Özümüzü yoxlayaq: Bu hissə yalnız şəriət qaydaları ilə bağlı olan dərslərdə verilir. Burada deyiləni şagirdlərin hər biri məktəbdə yerinə yetirməlidir. Valideynlər bu hissədə deyilənləri evdə də uşaqlarla birlikdə yerinə yetirə bilərlər. Ümid edirik ki, şagirdlərin hamısı dərslərin bütün hissələrində fəal şəkildə iştirak edəcəklər. Hər hansı şagird hissələrdən birində zəif çıxış edərsə, digər hissədə ona xüsusi diqqət yetirilməlidir.

# Mündəricat



Dərs 1: Allahın hədiyyələri .................12



Dərs 2: Quşlar nə deyirlər? .................16



Dərs 3: Ayın xatirəsi .................20



Dərs 4: Anadan daha mehriban ................24



Dərs 5: Dəstəmaz alıram .................28



Dərs 6: Allahın peyğəmbərləri .................34



Dərs 7: Kiçik qonaq .................38



Dərs 8: Ad günü .................42



Dərs 9: Peyğəmbərin Əhli-beyti .....46



Dərs 10: Mehriban ailə .................50



Dərs 11: Namaz qılaq .................54



Dərs 12: Qayğıkeş ata .................60



Dərs 13: Ən yaxşı dost .................64



Dərs 14: Yağış duası ................68



Dərs 15: Salam, uşaqlar! .................72



Dərs 16: Gözəl təbiət ..................76



Dərs 17: Namaz vaxtı ....................80



Dərs 18: Xoşbəxtliyin sirri ...................84

Dərs 19: Əzəmətli bayram ....................88






Dərs 20: Süfrə arxasında ....................92

Dərs 1

# Allahın hədiyyələri

Bütün uşaqlar sevinirdilər. Onlar təzə dərs kitablarını vərəqləyirdilər. Zəhra ilə Səba bir partada oturub kitabdakı şəkilləri bir-birinə göstərirdilər. Müəllim sinfə daxil olub gülərüzlə dedi: "Salam, uşaqlar!" Uşaqlar müəllimə hörmət əlaməti olaraq ayağa qalxıb hamı bir ağızdan: "Salam!" – deyə cavab verdilər. Müəllim sözünə "Allahın adı ilə" başlayaraq dedi:



“Uşaqlar, bu il yeni bir kitabımız var, adı “Səmavi hədiyyələr”dir.”

Reyhanə dedi: “Nə gözəl adı var! Mən hədiyyə qəbul etməyi çox sevirəm!”

Müəllim gülümsəyərək soruşdu: “Uşaqlar, sizcə, ən çox hədiyyəni sizə kim verib?”

Uşaqların hərəsi bir cavab verdi. Fatimə dedi: "Ata-anamız". Müəllim sözünə davam edərək sual verdi: “Bəs ata-ananızı sizə kim hədiyyə edib?” Məryəm dedi ki, mehriban Allah. Müəllim dedi: “O, bizi çox istəyən, bizə Günəş, yağış, meyvələr və s. kimi çoxlu nemətlər vermiş Allahdır!

Uşaqlar, bir neçə saniyəlik gözlərinizi yumun... İndi isə gözlərinizi açın. Hər yeri görə bilməyimiz və gözəl şəkillər çəkə bilməyimiz üçün Allah bizə göz verib.

Allah bizə əl verib ki, ...”





## Düşünürəm

Mehriban olan Allah bizə daha hansı nemətləri verib?



## İstəyirəm

Mənə bu qədər nemət və hədiyyə vermiş Allaha təşəkkür etmək və demək istəyirəm ki,...........



## Söhbət edək

Günəşin faydaları haqqında bir-birimizlə söhbət edək. Əgər Günəş olmasaydı, nə baş verərdi?



## Səhnələşdirin

Əgər bir gün məktəbdə və ya evdə su kəsilərsə, nə baş verəcəyini dostlarınızla birlikdə səhnələşdirin.

## Düşün və tap

Aşağıda verilmiş şəkildə Allahın nemətlərini tap və onların adını yaz.



.................................. ..................................

.................................. ..................................

Dərs 2

# Quşlar nə deyirlər?



Bir payız gününün axşamı idi. Sərçələr bir ağacın budağına qonub cikkildəşirdilər. Səidə otağın pəncərəsindən göyə baxaraq dedi: “Ana, sərçələr nə üçün cikkildəşirlər? Onlar nə deyirlər?” Anası dedi: “Qızım, biz danışdığımız kimi, sərçələr də danışırlar. Məncə, onlar cikkildəşməklə Allaha təşəkkür edirlər”.

Səidə dedi: Onlar Allaha nə deyirlər?

Anası dedi: "Ola bilər deyirlər ki, ay Allah, bizə uçmağı Sən öyrətdin, yuva qurmağı Sən öyrətdin, dən tapmaq üçün hara uçmalı olduğumuzu Sən öyrətdin. Ay Allah, bizə qarşı bu qədər mehriban olduğuna görə Sənə təşəkkür edirik".

Səidə dedi: "Quşlar Allahla nə qəşəng danışırlar! Mən də Allahla danışıb Ona təşəkkür etmək istəyirəm".

Elə bu vaxt məsciddən azan səsi eşidildi. Səidənin anası dəstəmaz alıb namaz qılmağa başladı. Səidə öz-özünə dedi: "Yəqin anam Allahla danışıb Ona təşəkkürünü bildirir". O da dəstəmaz aldı, güllü çadrasını örtərək anasının yanında dayanıb namaz qılmağa başladı.





## Düşünürəm

Sərçələr Allahla danışa bilirlərsə, mən də Allahla danışıb deyim ki, ....



## İstəyirəm

**Atam və ya anam namaz qılanda mən də ...**



## Söhbət edək

1. Allahla danışmaq istəyəndə nə edirik!
2. Dərs oxumaqla Allahın hansı nemətlərinə görə təşəkkür etmək olar?

Allahım, mən dünyaya gəldiyim gündən Səndən çoxlu hədiyyələr almışam.

Allahım, Sən mənə ..........................................................................

..........................................................................................................

..........................................................................................................

**Birlikdə oxuyaq**

# Sərçənin səsi



Səhər gələndə,
Nazlı bir sərçə
Budaq üstündə
Oynaqlayırdı.
Onun cik-ciki
Çox qəşəng idi,
Pırpız tükləri
Şux lələkləri
Gülməli idi.
Yaxına gedib
Ondan soruşdum:
“Niyə cik-ciklə
Var-gəl edirsən?”
Balaca sərçə
Gülərək dedi:
“Mən şükür edirəm
Gözəl Allaha”.
Sərçənin səsi
İbadətidir,
Qanad çırpmağı
İtaətidir!

Seyyid Əhməd Zərhani

Dərs 3

# Ayın xatirəsi

Gecə yarıdan keçmişdi. Ay göyün üzündən aşağı baxırdı. İşıqlı bir ev gördü. Evdə ana ilə oğlu oyaq idi. Ana əllərini göyə qaldırıb ay işığında dua edirdi. Oğlu isə anasının dualarını eşidib sakitcə "Amin" deyirdi.

- Allahım, xəstələrə şəfa ver!
- Allahım, yoxsullara kömək ol!
- Allahım, hamını doğru yola yönəlt!

Oğul anasından soruşdu: "Bəs nəyə görə özün üçün dua etmirsən?" Anası əli ilə oğlunun başını sığallayaraq dedi: "Əzizim, əvvəlcə başqaları üçün, sonra isə özüm üçün dua edirəm".

Həmin gecə Peyğəmbərin (s) qızı həzrət Fatimə (s.ə) qonşular və dostları üçün dua etdi, oğlu Həsən (ə) də onun dualarına "Amin" dedi.

Ay öz-özünə dedi: "Necə gözəl ev, necə gözəl dualardır!"





## Düşünürəm

İmam Həsən (ə) anasından öyrəndi ki, ...

## İstəyirəm

Mən də həzrət Fatimə (s.ə) kimi başqaları üçün dua etmək istəyirəm. Buna görə də deyirəm: ...

## Əmin və Minə

Əmin Minənin qardaşıdır. Onlar nənələrinin yanında oturub dua etməyi xoşlayırlar.

Əmin: Allahım, mənə və dostlarıma kömək ol ki, ........................................

Minə: Ey böyük Allah, elə bir iş gör ki, bütün insanlar ...............................

Əmin: Allahım, nənəmə cansağlığı ver ki, ...................................

Mina: Ey mehriban Allah, ata-anamı və müəllimimi ...........................

Nənə dedi: Uşaqlar, indi də mən dua edim, siz "Amin" deyin.

Allahım, bizim zəmanəmizin imamını tez yetir və din rəhbərlərimizə cansağlığı ver!

Əmin və Minə: Amin!

## Allahla söhbət

Allahım, ..........................................................................................................

..........................................................................................................................

..........................................................................................................................



Dərs 4

# Anadan daha mehriban

... Sıx ağacların arasından keçirdim. Qulağıma bir neçə quş balasının cikkiltisi gəldi. Səsin gəldiyi istiqamətə gedib sərçələrin yuvasına çatdım. Necə gözəl balalardır!

Sərçə balalarını götürüb yoluma davam etdim. Mən getdikcə sərçə balaları daha bərk cikkildəyirdilər, sanki kimisə çağırırdılar. Bəlkə də ac idilər. Başımı qaldırıb göyə baxanda gördüm ki, başımın üzərində bir sərçə uçur. Sərçə sürətlə mənə yaxınlaşıb birdən özünü balaların üstünə atdı. Çox qəribə hadisə idi! Mən onları götürüb özümlə gətirdim.

* * *

Həzrət Muhəmməd peyğəmbər (s) və dostları kişinin sözünə qulaq asırdılar. Peyğəmbər (s) buyurdu: "Sərçənin balalarını yerə qoy". Hamı təəccüblə baxırdı. Ana sərçə balalarından ayrılmırdı. Peyğəmbərin (s) dostlarından biri dedi: "Necə mehriban anadır!" Başqa birisi isə dedi: "Ana bircə an da olsun, balalarından ayrılmır!" Peyğəmbər (s): Bu ananın mehribanlığına təəccüblənirsiniz? Bilin ki, Allah bu anadan daha mehribandır. O Öz bəndələrini çox sevir! - deyə buyurdu.

Sonra isə Həzrət Peyğəmbər (s) sərçə balalarını özü ilə gətirmiş kişiyə buyurdu ki, onları yuvalarına qaytarsın. Kişi geri qayıtdı. O, yolla gedərkən Peyğəmbərin (s) dediyi söz və Allahın mehribanlığı barədə fikirləşirdi.

هُوَ اَرْحَمُ الرَّاحِمينَ

O, mərhəmətlilərin ən mərhəmətlisidir.

(Yusuf surəsi, 64-cü ayə)



## İstəyirəm

Mən də quşlara qarşı mehriban olmaq istəyirəm. Buna görə də ...

## Əmin və Minə

Əminlə Minə ata-analarının onlara qarşı nə qədər mehriban olması barədə bir-birilə söhbət edirlər.

Əmin: Ana bizim üçün dadlı yeməklər hazırlayır. Mən ona deyirəm:.............

Minə: Ata evdən kənarda işləyib bizim üçün..............................................

Əmin: Allahdır ki, belə mehriban ata ananı bizə..................................

Minə: Biz onların çəkdiyi əziyyətlərə görə təşəkkür etmək üçün..........

## Səhnələşdirin

Dərsin mövzusunu sinifdə səhnələşdirin.

## Gözəl bir iş

Rəsm dəftərində iki gözəl gül şəkli çəkin. Hər gülün yanında ata-anaya təşəkkür əlaməti olaraq bir cümlə yazın və onlara hədiyyə edin.

## Bax və de

Aşağıda verilmiş iki şəklə diqqətlə baxın. Onlardan nə başa düşürsüz?





..............................................................................................................

..............................................................................................................

..............................................................................................................

# Dəstəmaz alıram

Azançının səsi eşidilir: "Allahu əkbər ..."

Namaz vaxtıdır. Mehriban olan Allahla danışmaq istəyirəm. Bunun üçün özümü hazırlamalıyam.



Əvvəlcə niyyət edirəm ki, Allahın əmrini yerinə yetirmək üçün dəstəmaz alıram. Sonra üzümü alnın tük bitən hissəsindən çənəyə qədər üzüaşağı yuyuram.



İndi əllərin növbəsidir. Əvvəlcə sağ əlimi dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağıya doğru yuyuram.



Sonra isə eyni qayda ilə sol əli də sağ əl kimi yuyuram.



Bunun ardından sağ əlin nəmi ilə əlimi başımın ön hissəsinin tüklərinə çəkirəm.



Ondan sonra sağ əlimi sağ ayağımın barmaqlarının ucundan ayağın üzərindəki qabarıq yerə kimi çəkirəm.



Sonra da eyni sol əlimi eyni qaydada sol ayağın üzərinə çəkirəm.



Anam deyir ki, dəstəmaz alanda təmiz olub namaz qılmaq üçün hazır vəziyyətə gəlirik.
Mən dəstəmaz haqqında olan gözəl şeiri ondan öyrənmişəm.

## Özümüzü yoxlayaq

Müəllimin köməyi ilə məktəbin həyətində dəstəmaz alın.



# Əmin və Minə

Əminlə Minə aşağıda verilmiş şəkilləri ardıcıllıqla nömrələmək istəyirlər. Siz də onlara kömək edin.








## Bax və de

Hansı işlər üçün dəstəmaz alırıq?



.................................................................. üçün



.................................................................. üçün

Yaxşı olar ki, ..................................................



Dərs 6

# Allahın peyğəmbərləri




Ələddin müəllim yazı taxtasına yazdı:

Allah
Peyğəmbər
İnsanlar

Sonra isə uşaqlardan istədi ki, bu sözlərdən istifadə edərək cümlə qursunlar. Uşaqlar qələm götürüb cümlələr qurdular. Müəllim cümlələri lövhəyə yazıb uşaqlardan ən yaxşı cümləni kimin yazdığını soruşdu. Uşaqlar hamı bir ağızdan: "Səid" – deyə cavab verdilər.

Müəllim Səidə dedi ki, yazdığı cümləni ucadan oxusun.

Səid dedi: “Allah peyğəmbərləri göndərib ki, insanları doğru yola yönəltsinlər”.

Müəllim soruşdu ki, peyğəmbərlər insanları nəyə yönəldirlər?

"Onlar insanlara yaxşı işləri öyrədib pis işlərdən çəkindirirlər" - deyə Səid cavab verdi.

* * *

Müəllim dedi: "Afərin uşaqlar! İndi isə Allahın ən böyük peyğəmbərlərinin adlarını çəkə bilərsinizmi?"
Uşaqlar cavab vermək üçün əllərini qaldırdılar ...
Müəllim cavabları lövhəyə yazdı:
Həzrət Nuh (əleyhissəlam)
Həzrət İbrahim (əleyhissəlam)
Həzrət Musa (əleyhissəlam)

Həzrət İsa (əleyhissəlam)
Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih)
Daha sonra isə müəllim dedi:
“Uşaqlar, Allah çoxlu peyğəmbərlər göndərmişdir. Lakin ən böyük peyğəmbərlər bu beş nəfərdir”.





## Düşünürəm

Bizim üçün bu qədər peyğəmbər göndərmiş Allaha necə təşəkkür edə bilərəm?

## İstəyirəm

Allahın gözəl peyğəmbərlərinin sözlərini dinləmək istəyirəm ki, ...

## Bax və de

Aşağıda verilmiş şəkillərə baxaraq onların əhvalatını dostlarınız üçün danışın.







## Əmin və Minə



Əminlə Minə "Allahın peyğəmbərləri" dərsini atalarına göstərirlər. Ata deyir: Uşaqlar, peyğəmbərlər insanları hansı işlərə dəvət edirlər?"

Əmin: Yaxşı işlər görməyə. Məsələn,............................................

Minə: Onlar bizə öyrədirlər ki, ....................................................

Əmin: Onu öyrədirlər ki, başqalarını ....................................olmaz

Minə: Məsələn, dostlarımızla oynayarkən .....................................

Ata dedi: "Afərin uşaqlar! Peyğəmbərlər ona görə gəlmişlər ki, Allahın sözlərini insanlara çatdırıb onları yaxşı işlərə dəvət etsinlər".



## Söhbət edək

Dərsdə adlarını öyrəndiyimiz peyğəmbərlərdən başqa daha hansı peyğəmbərləri tanıyırsınız? Onların barəsində bir-birinizlə danışın.

Dərs 7

# Kiçik qonaq

Günorta idi. Allahın peyğəmbəri Həzrət Muhəmməd (s) öz dostu Bilalla məsciddə əyləşib bir-biri ilə söhbət edirdi. Bu vaxt bir uşaq məscidə gəlib salam verərək Peyğəmbərə dedi: "Mənim atam yoxdur, anam və bacımla yaşayıram. Sizi çox istəyirəm!"

Peyğəmbər (s) mehribanlıqla uşağa baxıb buyurdu: Sən necə də ədəbli danışırsan!

Sonra isə həzrət Muhəmməd (s) Bilala üzünü tutub buyurdu: "Bizim evə get və bu uşaq üçün yemək gətir". Bilal gedib bir qədər sonra xurma ilə dolu kiçik bir qabla geri qayıtdı. Peyğəmbər (s) xurmaları saydı. İyirmi bir ədəd xurma var idi. Peyğəmbər (s) uşağın başını sığallayaraq belə buyurdu: "Xurmaların yeddisi sənin, yeddisi bacının, yeddisi də ananındır."

Uşaq xurmalardan birini götürüb yedi. Çox şirin idi! Sonra Peyğəmbərə (s) təşəkkür edib tez evlərinə doğru getdi.



## Düşünürəm

Nuhəmməd peyğəmbər (s) çox mehriban imiş ki, ............. .

## İstəyirəm

Mən də uşaqlara qarşı mehriban olmuş Peyğəmbər (s) kimi ...................... ilə mehriban olmaq istəyirəm.

## Əmin və Minə

Əminlə Mina Peyğəmbərin (s) mehribanlığı barədə bir-biri ilə söhbət edirlər.
Əmin: O uşaq üçün xurma gətirən şəxs Peyğəmbərin (s) vəfalı dostu ...
Minə: Allahın gözəl peyğəmbəri hətta məsciddə də ...........................
Əmin: Əgər mən o uşağın yerində olsaydım, ....................................
Minə: Allah insanlara kömək etməyə görə çox .................................

**Həzrət Muhəmməd peyğəmbərin (s) Mədinə şəhərindəki məscidi**



Dərs 8

# Ad günü



Bu gün Məhəmmədin bir yaşı tamam olur. Zəhra qardaşını öpərək keçən ili – Allahın onlara körpəni hədiyyə etdiyi günü yadına salır. Allahın peyğəmbəri həzrət Mühəmmədin (s) doğum günü idi. Buna görə də atası ilə anası təzə doğulmuş uşağa Peyğəmbərin adını qoydular. Zəhra çox sevinir. Bu gün o, anası və qardaşı ilə birlikdə böyük bir bayram şənliyində iştirak etmək istəyir.

***

Zəhra anası ilə birlikdə məscidə daxil oldu. Məscidin həyətini gül ətri bürüyüb. Divarlar rəngli parça və kağızlarla bəzədilmişdir. Məscid həmişəkindən daha da gözəl olub.

Zəhra rəfiqəsi Aminəni görür. Ona tərəf gedib Peyğəmbərin (s) doğum günü münasibətilə rəfiqəsini təbrik edir. Elə bu vaxt azan səsi eşidilir. İnsanlar Peyğəmbərin gözəl adını eşidən kimi salavat deyirlər.

***

Namazdan sonra Peyğəmbərin (s) doğum günü münasibətilə şənlik təşkil olunur. Pişnamaz həzrət Mühəmmədin (s) həyatı barədə camaat üçün maraqlı əhvalatlar danışır. Məscidin uşaq qrupu isə gözəl bir dini mahnı oxuyur.



## Öyrənək:

Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih) Məkkə şəhərində anadan olmuşdur. Atasının adı Abdullah, anasının adı isə Aminə olmuşdur. Həddən artıq etibarlı və düzgün insan olduğuna görə onu “Muhəmməd əmin” (yəni etibarlı Muhəmməd) – deyə çağırırdılar. Biz müsəlmanlar Peyğəmbərimizi (s) sevir və ona ehtiram edirik. Onun ziyarəti üçün Mədinə şəhərinə gedir, hər il Peyğəmbərimizin (s) doğum gününü bayram kimi qeyd edirik.



## İstəyirəm

Allahın peyğəmbərinin adı çəkiləndə salavat demək istəyirəm. Yəni belə demək:......



## Söhbət edək

Peyğəmbərin (s) doğum gününü nəzərə alaraq, bayram tədbirləri haqqında danışaq.
İndiyədək hər hansı bir məsciddə olmusunuzmu? Hansı bayram tədbirlərini görmüsünüz?



## Düşün və tap


Həzrət Mühəmməd (səlləllahu əleyhi və alih)
Anasının adı:
..............................
Atasının adı:
..............................
Tanındığı ləqəbi:
.....................
Anadan olduğu yer:
.........................

Dərs 9

# Peyğəmbərin Əhli-beyti

Həsənlə Hüseyn evə gəldilər Analarına salam verib dedilər: "Bu gün evimizdən nə gözəl ətir gəlir? Babamızın ətrini duyuruq!" Anaları salamın cavabını verdikdən sonra dedi ki, bəli, bu gün baba onların qonağıdır.
Uşaqlar çox sevinib tez otağa tərəf qaçdılar. Allahın peyğəmbəri onları qucağına götürdü. O, nəvələrini çox istəyirdi!
Sonra Peyğəmbər (s) əbasını həm özünün, həm də nəvələrinin başına örtdü. Uşaqlar balaca əlləri ilə babalarının boynunu qucaqladılar. Hərəsi bir arzu etdi:
- Kaş ata da burada olardı!
- Kaş ana da burada olardı!
Bir qədər sonra tanış bir səs eşitdilər...
"İcazə verirsinizmi biz də sizin yanınızda olaq?" Uşaqlar ata-analarının da Peyğəmbərin (s) yanında olmasına çox sevindilər. Səmimiyyət və mehribanlıq dolu kiçik bir otaq əmələ gəldi.



* * *

Peyğəmbər (s) əllərini qaldırıb dua etdi: "Allahım, bu dörd nəfər mənim Əhli-beytimdir. Onları sevənləri sev, onların düşmənləri ilə düşmən ol! Allahım, onlara salam göndər və pislikləri onlardan uzaq et!"



## Düşünürəm

Peyğəmbərin (s) Əhli-beyti necə insanlar olublar ki, Uca Yaradanımız və Peyğəmbəri (s) onları bu qədər çox sevib?

## İstəyirəm

Mən də böyüklər kimi hər dəfə Peyğəmbərin (s) Əhli-beytinin adını çəkəndə hörmətlə ................ demək istəyirəm.

## Bir-birimizlə danışaq

Bu əhvalatdan nələr öyrənirik?

1. ................................................
2. ................................................
3. ................................................
4. ................................................

## Gözəl bir iş

Biz müsəlmanlar hər gün namazlarımızın təşəhhüdündə Muhəmməd Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) salam göndərərək deyirik:

اَللّٰهُمَّ صَلِّ عَلٰى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ

Yəni: ........................................................................ .



Dərs 10

# Mehriban ailə

Neçə gün idi ki, Həsənlə Hüseyn xəstə idi. Anaları onlara qulluq edirdi. Övladlarını həddən artıq çox istəyən imam Əli (ə) ilə həzrət Fatimə (s.ə) onların sağalması üçün dua edərək deyirlər: "Allahım, əgər uşaqlarımız sağalarlarsa, Sənə təşəkkür əlaməti olaraq üç gün oruc tutarıq".

Allah uşaqları sağaldır.

Bir neçə gün sonra ...

İmam Əlinin (əleyhissəlam) ailəsi oruc idi. İftar vaxtı sadə bir süfrə açırlar. Birdən qapı döyülür və bir nəfər qapının arxasından deyir: "Ac bir yoxsulam, mənə bir az yemək verin".

Qapını döyən yoxsul adam bilirdi ki, bu evin sakinləri Peyğəmbərin (s) ailəsidir və onlar da həzrət Muhəmməd (s) kimi mehriban və qayğıkeşdir.

Ev sakinləri qərara gəldilər ki, yoxsula kömək etsinlər.

Yoxsul kişi imam Əlidən (ə) çörəkləri alıb ona təşəkkürünü bildirir.

Növbəti gün, yenə də iftar vaxtı ...

Qapını bir yetim döyür.

Dünənki vəziyyət bu gün də təkrarlanır və ev sakinləri öz yeməklərini yetimə verirlər.

Üçüncü gün ...

Qapı döyülür ...

- Mən ac bir adamam. Yeməyə bir şey istəyirəm. İmam Əlinin (ə) ailəsi bu dəfə də öz yeməklərini ehtiyacı olana verir.



## İstəyirəm

Mən də İmam Əli (əleyhissəlam) və ailəsi kimi ...... istəyirəm

## Düşün və tap

Peyğəmbərin (səlləllahu əleyhi və alih) ailə üzvlərinin adlarını uyğun xanalara yazın.



## Düşünürəm



O yoxsul kişi yeməyi öz evinə gətirəndə onun uşaqları nə dedilər? ..............................

..............................

..............................

..............................



Yoxsul kişi uşaqlarına nə dedi? ..............................

..............................

..............................

..............................



Görəsən, o axşam yoxsul kişinin uşaqları yuxuda nə gördülər? ..............................

..............................

..............................

..............................

## Gözəl bir iş

Əgər sən yoxsul kişinin uşaqlarının yerində olsaydın, həzrət Əli (əleyhissəlam) və ailəsinə təşəkkür etmək üçün nə yazardın?

..............................

..............................

..............................

Dərs 11

# Namaz qılaq

Bir neçə gündür ki, Zeynəb anasından namaz qılmağı öyrənir. O istəyir ki, namaz qılmağı yaxşı öyrənsin. Bir gün anası ona dedi: "Artıq birlikdə iki rükət namaz qılmağın vaxtı gəlib çatıb". O, Zeynəbdən iki rükətli namazın necə qılındığını soruşdu? Zeynəb sevinərək dedi: Üzü qibləyə sakit dayanıb niyyət edirəm ki, Allaha xatir sübh namazı qılıram..





Əllərimi qulaqlarımın arxasına qədər qaldırıb “Allahu əkbər” deyirəm.



Sonra Həmd surəsni, ondan sonra isə Tövhid surəsini oxuyuram.



Bunun ardından rüku üçün əyilib üç dəfə “Subhanəllah” deyirəm.



Rükunu bitirdikdən sonra qalxıb düz dayanıram.



Sonra səcdəyə gedib üç dəfə “Subhanəllah” deyirəm.



Səcdədən qalxıb oturur, ardından yenidən səcdəyə gedirəm. Sonra yenə də qalxıb otururam.



Sonra ayağa qalxıb ikinci rükətə də birinci rükət kimi Həmd surəsi ilə başlayıram.



Davamında əllərimi qunut tutmaq məqsədilə göyə doğru açıb dua edirəm.

Qunutdan sonra rüku və iki səcdəni birinci rükətdə olduğu kimi yerinə yetirirəm.



İndi isə növbə təşəhhüdə gəlib çatıb. Yəni, oturub belə deyirəm:

اَشْهَدُ اَنْ لا اِلٰهَ اِلَّا اللّٰهُ وَحْدَهُ لا شَريكَ لَهُ وَ اَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسولُهُ،
اَللّٰهُمَّ صَلِّ عَلىٰ مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ

"Əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd".

Təşəhhüddən sonra isə namazın sonunda salam verirəm. Yəni belə deyirəm:

اَلسَّلامُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَ رَحْمَةُ اللّٰهِ وَ بَرَكاتُهُ، اَلسَّلامُ عَلَيْنا وَ عَلىٰ عِبادِ اللّٰهِ
الصّالِحينَ، اَلسَّلامُ عَلَيْكُمْ وَ رَحْمَةُ اللّٰهِ وَ بَرَكاتُهُ

"Əssəlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuhu. Əssəlamu əleyna və əla ibadillahis-salihin. Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh".

* * *

Zeynəbin anası gülümsəyərək deyir: "Afərin qızım! Allah ilə danışmağın ən gözəl yolu namaz qılmaqdır".

## Özümüzü yoxlayaq

Müəllimin köməyi ilə sinif yoldaşlarınızın qarşısında iki rükətli namaz qılın.

## Xatirə

Qıldığım ilk namaz ...





# Düşün və tap

Həmd surəsini oxumaq

Rüku

Səcdə

Təşəhhüd

Allahu əkbər











Dərs 12

# Qayğıkeş ata

Hava olduqca isti və günəşli idi. İmam Əli (əleyhissəlam) bir səbət götürüb evdən çıxdı. Bir qədər un, ət, xurma əldə edib səbətə qoydu. İmam bir neçə küçədən keçdikdən sonra bir evə çatdı. Həmin evdə bir neçə uşaq anaları ilə birgə yaşayırdı. Onların atası müharibədə şəhid olmuşdu. Uşaqlar gələn qonağı görüb sevincək ona tərəf qaçdılar. İmam un ilə əti uşaqların anasına verdi ki, onlar üçün yemək bişirsin. Özü isə uşaqların yanına getdi. Onları qucağına götürüb öz əli ilə onlara xurma yedizdirdi. Sonra da onlarla oynamağa başladı.

Evi və həyəti uşaqların gülüş səsi bürümüşdü. Uşaqlar İmamla (ə) oynamaqdan yorulmurdular. Həzrət Əli (ə) qayğıkeş bir ata kimi uşaqlarla mehriban rəftar edir, onları çox istəyirdi.

Uşaqlar o günü heç vaxt unutmadılar.



## Öyrənək

İmam Əli ibn Əbutalib (ə) rəcəb ayının on üçündə anadan olub. O, Allahın peyğəmbərinin (s) əmisi oğlu idi. Uşaqlıqdan Peyğəmbərin evində böyüyüb. İmam Əli (ə) İslam dinini qəbul etmiş ilk kişidir. O, çox vaxt Peyğəmbərlə (s) birlikdə olub İslam dininin göstərişlərini çox gözəl şəkildə ondan öyrənmişdir. Sevimli Peyğəmbərimiz (s) həzrət Əlini (ə) çox istəyir və buyurardı ki, Əli (ə) insanların ən biliklisidir.

İmam Əli (ə) həzrət Muhəmmədin (s) qızı ilə evlənmişdir. Allah onlara mehriban və şücaətli övladlar hədiyyə etmişdir. Nəhayət, imam Əmirəl-möminin Əli (ə) məsciddə namaz qılarkən din düşmənlərindən biri tərəfindən Allah yolunda şəhid edilmişdir.





## Düşünürəm

İmam Əli (əleyhissəlam) yetim uşaqlarla ona görə oynayırdı ki, ....

## İstəyirəm

Ehtiyacı olan insanlara kömək etmək istəyirəm. Buna görə də ...

## Söhbət edək

İmam Əlinin (əleyhissəlam) həyatı barədə eşitdiyiniz əhvalatları dostlarınız üçün danışın.

## Əmin və Minə

Əminlə Minə sizin köməyinizlə boş qalmış xanaları doldurmaq istəyirlər.



Dərs 13

# Ən yaxşı dost

Mədinədə müsafir olan kişi yorğun və əsəbi görünürdü. O, bu şəhərdə heç kimi tanımırdı. Birdən onun qulağına at ayağının taqqıltısı gəldi. Atlı adam ona salam verdi. Kişi dedi: "Sən kimsən?"

Atlı cavab verdi: "Mən Əlinin oğlu Həsənəm". Müsafir kişi bu adı eşitdikdə qəzəblənib İmamla çox pis danışdı.

O, Şam şəhərindən gəlmişdi. Orada Müaviyə hakimiyyətdə idi. Müaviyə isə İmam Həsənin (ə) düşməni idi.

İmam (ə) atdan düşdü, onun



sözlərini dinlədikdən sonra mehribancasına buyurdu: Deyəsən, bizim şəhərimizdə heç kimi tanımırsan. Əgər ürəyin istəsə, bizim evimizə gedib dincələ bilərsən, sənin qulluğunda durarıq. Bizim evimizdə istədiyin qədər qala bilərsən.

Müsafir nə cavab verəcəyini bilmədiyi üçün başını aşağı salıb dedi: "Mən sizin barənizdə başqa şeylər eşitmişdim. Buna görə də sizinlə çox pis danışdım. Xahiş edirəm, məni bağışlayın! Mən bu vaxta qədər sizin düşməniniz idim, bu gündən etibarən isə siz mənim ən yaxşı dostumsunuz!"



## Öyrənək

Ramazan ayının on beşində İmam Əli (ə) ilə həzrət Zəhranın ilk övladı anadan oldu. Onun adını Həsən qoydular. Həzrət Muhəmməd peyğəmbər (s) onu çox istəyir və belə buyurardı: "Həsənin əxlaqı və rəftarı mənim əxlaq və rəftarım kimidir".

İmam Həsən Müctəba (ə) olduqca mehriban və xoşəxlaq idi. Ehtiyacı olanlara kömək edərdi. Mədinə şəhərinin uşaqları onu çox istəyirdilər.

Bizim ikinci imamımız zalımlarla mübarizə aparıb axırda onların tərəfindən şəhid edilmişdir.





## Düşünürəm

İmam Həsən (əleyhissəlam) o kişi kimi kobud rəftar etmədi. Çünki ...



## Söhbət edək

“Ən yaxşı dost” hekayəsindən nələri öyrənirik?

1. Başqalarına pis sözlər deməyək.
2. ..........................................................................................
3. ..........................................................................................



## Əmin və Minə



Boş xanaları doldurmaqda Əminlə Minəyə kömək edin.



Dərs 14

# Yağış duası

Bir neçə ay idi ki, yağış yağmırdı. Kufə şəhərinin əhalisi bir yerə toplaşmışdı. Onlardan biri dedi ki, yağış yağması üçün gəlin Allahın ən gözəl bəndələrindən dua etmələrini istəyək. Beləliklə, toplaşıb İmam Əlinin (ə) evinə doğru getdilər.

- Ey Əmirəl-möminin, dua et yağış yağsın!

İmam gələn camaata nəzər salıb İmam Hüseynə (ə) buyurdu: “Bu susuz insanlar üçün dua et!”



İmam Hüseyn (əleyhissəlam) əllərini göyə qaldırıb dedi: “Ey Allahım, bizə hər şeyi Sən bağışlamısan. Verdiyin nemətlərə görə Sənə təşəkkür edirik. Ey Allahım, bəndələrin və susuz torpaq yağış yağmasını gözləyir. Öz yağışını bizə göndər ...”

Hələ İmamın duası bitməmişdi ki, şəhərin səmasında şimşək çaxdı, göy gurultusu səsləri eşidilməyə başladı. İri yağış damcıları uşaqların üzünə toxunaraq, sanki onlara sığal çəkdi.

Həmin gün Kufə şəhərinin əhalisi yağışdan doydu. Bu yağış Allahın İmam Hüseynə (ə) hədiyyəsi idi.



## Öyrənək

İmam Əlinin (əleyhissəlam) ikinci övladı şəban ayının üçündə anadan oldu. Allahın Peyğəmbəri (s) körpəni qucağına götürüb onu öpdü, adını Hüseyn qoydu. Peyğəmbər buyurardı ki, kim Hüseyni sevsə, Allah da onu sevər!

İmam Hüseynin (əleyhissəlam) dövründə Yezid adlı zalım bir hökmdar var idi. O, müsəlmanlara zülm edir, İslam dininin qaydalarına riayət etmirdi. Bizim üçüncü imamımız Yezidə qarşı mübarizə aparıb Aşura günündə şəhid oldu.

## Düşünürəm

Allah İmam Hüseyni (ə) çox istədiyi üçün ……………..

## Əmin və Minə

Əminlə Minə boş qalmış xanaları sizin köməyinizlə doldurmaq istəyir. Onlara kömək edin.



## Söhbət edək

Aşağıda verilmiş şəkili rəngləyin və onun barəsində dostlarınızla danışın.



Dərs 15

# Salam, uşaqlar!



Mədinə uşaqlarının başı oyun oynamağa qarışmışdı. Birdən küçədə Muhəmməd Peyğəmbərin (s) ətri hiss olundu! Allahın peyğəmbəri dostları ilə birlikdə məscidə gedirdi.

Peyğəmbər (s) uşaqları görcək onlara buyurdu: "Salam, uşaqlar!"

Uşaqlar Peyğəmbərin (s) ətrafına toplaşıb bir-bir dedilər: Salam, salam!..

Həzrət Muhəmməd (s) çox mehribanlıqla uşaqların əlindən tutub onlara nəvaziş göstərirdi.

Allahın peyğəmbəri uşaqları həddən artıq çox sevirdi! O, həmişə öz dostlarına buyurardı: "Mən sağ olduğum müddətdə həmişə uşaqlara salam verəcəm!"

Uşaqlar bu cür mehriban peyğəmbərlərinin olmasına görə çox sevinirdilər.

## Öyrənək

Adətən kiçiklər böyüklərə salam verir, beləliklə də onlara hörmət etmiş olurlar. Lakin bizim mehriban Peyğəmbərimiz (s) başqalarına, hətta uşaqlara da hamıdan qabaq salam verərdi.

İslam dini bizə tövsiyə edir ki, bir-birimizlə qarşılaşdıqda əvvəlcə salam verək, ondan sonra söhbətə başlayaq.

İmam Hüseyn (ə) buyurmuşdur: "Salamın yetmiş mükafatı var. Onun altmış doqquzu salamı verənə, biri isə salamı alana çatır".

Allah Quranda Peyğəmbərə (s) buyurmuşdur ki, möminlər sənin yanına gəldikdə



فَقُلْ سَلامٌ عَلَيْكُم

De: "Salam olsun sizə!"

(Ənam surəsi, 54-cü ayə)



## Düşünürəm

Başqalarına salam vermək ...



## İstəyirəm

Allahın peyğəmbəri (səlləllahu əleyhi və alih) kimi, mən də qarşılaşdığım insana............................................... istəyirəm.



## Söhbət edək

Bir-birimizə salam verdikdə ...

1. Bir-birimizlə daha yaxın oluruq.
2. ..................................................
3. ..................................................



## Əmin və Minə



Əmin: Mən Minədən daha kiçik olduğum üçün çalışıram ki, daha əvvəl .................................................................... .

Minə: Böyüklər də .................................................................... .

Əmin: Salam vermək başqalarına .................................................... əlamətidir.

Minə: Allahın peyğəmbəri buyurardı ki, mən sağ olduğum müddətdə həmişə uşaqlara salam .................................................... .



Dərs 16

# Gözəl təbiət

Təbiət qoynu ailələrlə dolu idi. Hər ailə bir kənara çəkilib çəmənliyin üzərində oturmuşdu.

Uşaqlar sevincək halda bir-birinin ardınca o tərəf-bu tərəfə qaçırdılar. Bir qədər aralıda bir neçə nəfər yerdən nəsə toplayırdı. Əli düşünərək atasından soruşdu: "Onlar orada nə edirlər?" Atası dedi: "Onlar camaatın yerə atdığı zibilləri toplayırlar." Əli çox narahat olub öz-özünə dedi: “Kaş bu gözəl təbiətə bu qədər zibil atılmayaydı!”



Əlinin atası bir torba götürdü və digər adamlara qoşularaq yerdən zibilləri toplamağa başladı. Əli də atasına kömək etdi. Getdikcə daha çox adam ayağa durub yerdəki zibilləri toplamağa qoşuldu. Bir qədər



sonra çəmənlik əvvəlki kimi təmiz və gözəl oldu.

Əlinin atası dedi: "Təbiət Allahın nemətidir. Biz onu çirkləndirməməliyik. Təmizlik bizim dinimizin nişanələrindəndir. Biz həmişə, hər yerdə təmiz olmalıyıq! Mehriban olan Allah bizim təmizliyimiz üçün göydən təmiz su endirmişdir".

وَ اَنْزَلْنا مِنَ السَّماءِ ماءً طَهُورًا

**Biz göydən təmiz su endirdik.**

(Furqan surəsi, 48-ci ayə)





## Düşünürəm

Allah xoşlayır ki, biz insanlar təmiz və pak olaq, çünki ...................



## Söhbət edək

Məktəb və sinif ərazisinin təmizliyini necə qoruyub saxlaya bilərik?



## Əmin və Minə



Əminlə Minə təbiət və onun gözəllikləri barədə söhbət edirlər.

Əmin: Mən təbiətdə ............................................................................ bacararam.

Minə: Gözəl təbiət Allahın bizə bəxş etdiyi ................................

Əmin: İslam təmizlik və ................. dinidir.

Mina: Mən təbiəti təmiz saxlamaq üçün ..................................................

Əmin: Mən də ...............................................................................................



## Düşün və tap

Şəkillərdə verilmiş gülləri tanıyırsınızmı? Onların adlarını yaz.



G........................................



N........................................



L........................................



Q........................................

Bu gözəl gülləri mehriban olan Allah təbiətə bəxş etmişdir. Bu gözəl hədiyyəyə görə biz uşaqlar ...

Dərs 17

# Namaz vaxtı

Quqquli quuuu ...
Bu, qonşunun xoruzunun səsidir!
Yuxudan oyanıram. Azanın səsi eşidilir. Gözəl səhər çağıdır.
Anam ağ çadrası ilə hazır dayanıb ki, birlikdə namaz qılaq.
O, mənə öyrədib ki, səhər iki rükət namaz qılırıq.
Anam deyir ki, günəş çıxdıqda sübh namazının vaxtı başa çatır.

* * *

Günortadır. Günəş göyün düz ortasındadır. Məktəbin həyətində azan səsi eşidilir. Mən dostlarımla birlikdə dəstəmaz alıb namaz otağına gedirik. Namazı birlikdə qılmağı çox xoşlayıram. Öyrənmişəm ki, zöhr və əsr namazlarının hər biri dörd rükətdir.
Müəllimimiz deyir ki, günorta namazlarını qılmaq üçün gün batana qədər vaxt var.

* * *

Günəş batır. Bir daha məhəllənin məscidindən gözəl azan səsi eşidilir. Atam deyir ki, azan səsi bizi namaza dəvət edir. Valideynlərimizlə birlikdə məscidə gedirik. Mən namazımı məsciddə qılmağı çox sevirəm.
Əvvəlcə üç rükət şam namazı, sonra isə dörd rükət işa namazı qılırıq.






## Düşünürəm

Gündə beş dəfə Allahla söhbət edə bilməyim necə də gözəldir! Sübh namazı vaxtı və ....

## İstəyirəm

Hər gün məktəbdə müəllim və dostlarımla birgə namazı əvvəl vaxtında qılmaq istəyirəm.

## Əmin və Minə

Əminlə Minə namaz qılmaq istəyirlər. Hər namazı neçə rükət qılmalı olduqlarını bilmələri üçün onlara kömək edin.

| | | | |
|---|---|---|---|
| Sübh namazı | .................. rükət | Şam namazı | .................. rükət |
| Zöhr namazı | .................. rükət | Işa namazı | .................. rükət |
| Əsr namazı | .................. rükət | | |

## Bax və de

Verilmiş şəkillər hansı namazın vaxtını bildirir?



.......................... ................. və ................. ................. və .................



Dərs 18

# Xoşbəxtliyin sirri

Bir kişi uzaq yolu qət edərək Mədinə şəhərinə yetişmişdir. O, şəhərinin küçələrindən tələsik keçərək özünü məscidə çatdırdı. Həzrət Muhəmməd peyğəmbər (s) dostları ilə danışaraq onları yaxşı işlərə dəvət edirdi.

Müsafir irəli keçib salam verdi. Peyğəmbər (s) və dostları onun salamının cavabını verib oturması üçün yer verdilər.

Həzrət Muhəmmədin (s) sözləri bitdikdən sonra kişi ayağa qalxıb dedi: "Ey Allahın peyğəmbəri! Mən istəyirəm ki, yaxşı insan olum, hamı məni çox istəsin. İstəyirəm ki, həmişə gözəl yaşayışım olsun!"

Müsafirin bu sözləri Peyğəmbərin (s) dostlarında maraq yaratdı. Gözlərini Peyğəmbərin dodaqlarına zilləmişdilər ki, onun verəcəyi cavabı eşitsinlər. Həzrət Muhəmməd (s) bir qədər düşündükdən sonra dedi:

"Xoşbəxt olmaq istəyirsənsə, heç vaxt yalan danışma!"





## Düşünürəm

Hamımız xoşbəxt olmaq istəyirik. Buna görə də Peyğəmbərin (s) sözünü dinləməli və ..................................................



## Söhbət edək

Doğru danışmağın faydaları və yalan danışmağın zərərləri barədə dostlarınızla danışın.

### Doğru danışmağın faydaları

1. ..................................................
2. ..................................................
3. ..................................................

### Yalan danışmağın zərərləri

1. ..................................................
2. ..................................................
3. ..................................................

## Əmin və Minə

Əmin: Dil Allahın bizə verdiyi neməti və hədiyyəsidir. Buna görə də ..

...........................................................................................

Minə: Allah .............. insanları çox sevir.

Əmin: Həmişə doğru danışan insan .............................................

Minə: Bu kişinin əhvalatından başa düşdüm ki, ..............................

.............................................................................................................................................

....................................................................... .

## Səhnələşdirin

Yalan danışan insanın hansı çətinliklərlə qarşılaşdığını göstərən bir səhnəni nümayiş etdirin.

Dərs 19

# Əzəmətli bayram



## Evdə

Səhər mən məktəbə gedərkən anam həyətimizi süpürürdü. Atam isə qızıl gülləri sulayırdı. Küçəyə su səpilmişdi. Havadan yaz fəslinin ətri duyulurdu.

## Məktəbdə

Mən, sinif yoldaşlarım müəllimin köməyi ilə sinfimizi bəzədik. Tavandan on dörd ədəd qırmızı və ağ gül asdıq. Sinifimiz çox gözəl oldu!



## Məhəllədə

Məktəbdən qayıtdıqda böyük qardaşımı gördüm. O, dostları ilə birlikdə küçədən bəzəkli lampalar asmışdı. Gözəl dini mahnı səsi eşidilirdi. Onlar yoldan keçənlərə şirni və şərbət paylayırdılar.

## Məsciddə

Azan verildikdə camaat namazı qılmaq üçün məscidə getdim. Böyük və rəngli bayraqların üzərində yazılmışdı: "Mehdi can, doğum günün mübarək!"

Hamımız sevinib gülür, böyük bir bayram tədbirinə hazırlaşırdıq!

* * *

Sabah şaban ayının on beşi, İmam Mehdinin (əleyhissəlam) doğum günüdür. Atam deyir: "O, gəlişini hamımızın gözlədiyi bir şəxsdir! O, gələndə hamı bir-biri ilə mehriban yaşayacaq!"



## İstəyirəm

Elə bir iş görmək istəyirəm ki, İmam Mehdi (əleyhissəlam) məni daha çox sevsin. Buna görə də ...

## Bayram keçirək

Yaxşı olar ki, biz uşaqlar da şaban ayının on beşinci günü bayramı üçün bir tədbir keçirək.

1. Mən dostumla ..........................................................

2. ..........................................................

3. ..........................................................

4. ..........................................................

5. ..........................................................

## Gözəl bir iş

Ey İmam Zaman, mən səni çox sevirəm və həmişə dua edirəm ki, ..........................................................

..........................................................



Dərs 20

# Süfrə arxasında

Təpənin yuxarısından hər tərəf yamyaşıl və gözəl görünür. Atamla əmim tarlada iş görürlər. Əmim oğlu Rza əlində bir boxça yemək ilə uzaqdan mənə doğru gəlir. Mən təpədən aşağı enirəm. Bulaq başına gedib əllərimizi yuyuruq. Bulaq suyu sərin və durudur. Süfrəni sərməkdə Rzaya kömək edirəm. Nə dadlı yemək gətirib!

Atam: "Bismillahir Rəhmanir Rəhim" – deyib yeməyə başlayır. Bizə deyir: "Uşaqlar, bu nemətləri bizə Allah verib. Buna görə də yeməyə Onun adı ilə başlamalıyıq!"



Mən də dodağımın altında deyirəm... Gözüm əmimə sataşır. O, tikələri xırda-xırda götürür, yeyərkən ağzını bağlayır və tikələri sakit, səssiz çeynəyir.

Yeməyi bitirdikdən sonra atam Allaha şükür edərək deyir: "Əlhəmdu lillah. Ey Allahım, bütün aclara yemək ver!"

Mən də dodağımın altında dua edərək deyirəm...

Köməkləşib birlikdə süfrəni yığırıq. Mən xırda çörək qırıntılarını ağacın dibinə tökürəm.

Sərçələr yerə qonub cikkildəşirlər.

Elə bilirəm ki, onlar belə deyirlər: ...





## İstəyirəm

Hər dəfə yemək yeyib qurtardıqdan sonra Allaha təşəkkür edib belə demək istəyirəm: ...



## Söhbət edək

Yemək yeyərkən hansı işləri görməli, hansı işləri görməməliyik?

1. Əgər yemək qaynardırsa, onu üfürməməliyik.

2. ........................................................................ .

3. Artıq qalmış yeməkləri ................................................ .

4. Deməməliyəm ki, bu yeməyi xoşlamıram, əksinə .............................. .

5. Hər gün səhər yeməyini axıra qədər yeməliyik.

# Əmin və Minə

Əminlə Minə ailələri ilə birlikdə istirahət və gəzinti üçün babalarının bağına gediblər.
Yarımçıq verilən ifadələri tamamlayın



Yeməyə ................. adı ilə
............................



Loxmaları ..........................
.................. çeynəməliyik.



Loxmaları ..........................
..........................................



Yeməyi bitirdikdən sonra ....
.......................................

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
DK-430/B saylı, 21 iyul 2020-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

Çapa imzalanmışdır: 21.09.2020. Formati 60x84 1/8.
Sifariş No 48. Tiraj 500

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru